# Əfsanəvi qəhrəman obrazı

## *İki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun xatirə-muzeyindən fraqmentlər*



Hər dəfə cənub bölgəsinə doğmalarla, yaxın qohumlarla görüş üçün getmişəm. Belə görüşlər də bir növ atüstü olur. Doğmaların adı ilə bağlı məclislərdə iştirak etmək, yaxın qohumların hər biri ilə hal-əhval tutmaq, ən ümdəsi də qayğıya ehtiyacı olan, nisbətən yaşlaşmış simsarlarla görüşmək belə səfərlərdə həmişə diqqətimdə olub. Ancaq bu dəfəki görüşüm, daha doğrusu, cənub bölgəsinə səfərim tam ictimai məzmun daşıyırdı. Bir xeyli bundan əvvəl məlumat verdiyim kimi uşaqlığımın keçdiyi ata-baba yurdum olan Gərmətük kəndinə getməyi, birinci sinfi oxuduğum məktəbi ziyarət etməyi, Lənkəran mühitində yaşayıb-yaradan ədəbi simaların yığıncağında iştirak etmək, onlarla fikir bölüşmək əsas məqsədim idi. Amma iş belə gətirdi ki, cənub səfərim Astara səfəri ilə tamamlandı. Astarada da - bu cənub şəhərində də zəngin ədəbi mühit var, qaynar ictimai həyat istər-istəməz diqqəti cəlb edir. Bir sözlə, Astara şəhərində çox mənalı və məzmunlu tədbirlərin iştirakçısı oldum və bu barədə cənub bölgəsindən olan astaralı, çox istedadlı yazar Gülnar Əsədlinin əhatəli bir yazısı da, həm sosial şəbəkədə, həm də mətbuatda yayımlandı. Elə mənim özüm də yuxarıda qeyd etdiyim kimi səfərim haqqında dolğun və əhatəli məlumat vermişəm. Bu görüşləri əks etdirən foto şəkillər tarixi yaddaşın xronikasına daxil olub. Ancaq indi bir məsələdən ayrıca danışmaq istəyirəm; bəli, Lənkəran şəhərindəki bir xatirə-muzey haqqında. Əlbəttə, söhbət Həzi Aslanovun xatirə-muzeyindən gedir.



İki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanov müharibələr tarixinin əfsanəvi qəhrəmanıdır. Mən xüsusi qürur hissi ilə qeyd edirəm ki, qəhrəmanın adına, xatirəsinə uyğun çox üstün əbədiləşdirmə tədbirləri həyata keçirilib. Əlbəttə, Həzi Aslanovun adının respublikada - indiki müstəqil, müasir Azərbaycanımızda əlahiddə tarixi şəxsiyyət kimi əbədiləşdirilməsinin bir çox cəhətləri ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müvafiq günlərdə ulu öndər Heydər Əliyev Həzi Aslanovla bağlı tədbirlərdə şəxsən iştirak edirdi və o, bu görkəmli hərb xadimini həmişə yüksək qiymətləndirirdi.

* * *

Axır ki, cənub səfərimin əsas məramı ilə hər kəsi ayrıca məlumatlandırmaq qərarına gəldim. Bu səfərdə məni əvvəlki məlumatda qeyd etdiyim kimi doğmalarım müşayiət edirdi. Nəvəm Əli sürücülük missiyasını yerinə yetirirdi.

Nəhayət, biz iki dəfə Sovet İttifaqı qəhrəmanı, general-mayor Həzi Aslanovun ev muzeyinə gəldik.

Qüdrətli insanların adları ilə bağlı olan xatirə yerləri, onların bilavasitə ömürlərinin az-çox keçdiyi günlərin izlərini saxlayan hər yer əslində müqəddəs tutulmalıdır. Vətən qədri bilən, tarixə hörmət bəsləyən hər kəs belə yerləri ziyarət etməyi özünə borc bilməlidir.

Həzi Aslanovun xatirə-muzeyi də kifayət qədər qayğı ilə əhatə olunub. Burada qəhrəmanın şəxsi əşyaları, onun həyatının müxtəlif dövrləri ilə bağlı olan məlumatlar, bir sözlə, bu əfsanəvi hərb xadimini yaddaşlarda canlandıra biləcək nə varsa, hamısı toplanıb.

Doğrusu, mənim çoxdankı arzum idi Lənkəranda məxsusi olaraq əfsanəvi qəhrəmanın xatirə-muzeyində olum. Uzun illər qəlbimdə yaşatdığım istək və arzularımı muzey əməkdaşlarına çatdırım, ən başlıcası, naşiri olduğum Musa Bağırovun “Sərkərdənin taleyi” kitabının bir çox nüsxələrini məhz qəhrəmanın adı ilə bağlı muzeyə təqdim edim.

Onu da deyim ki, Musa Bağırov qəhrəmanın taleyi ilə bağlı mühüm tarixi hadisənin reallaşmasında xüsusi xidmətləri olan ziyalılarımızdan biridir. O, H.Aslanovun ikinci dəfə Sovet İttifaqı qəhrəmanı adına təqdim olunması haqqında məlumatı arxivlərdən şəxsi fədakarlığı ilə üzə çıxara bilmişdi. O, həmin təqdimatın rəsmi dövlət səviyyəsində təsdiq olunması üçün misilsiz inadkarlıq və mübarizə dəyanəti göstərmişdi.

Artıq hər kəsə məlumdur ki, elə Musa Bağırovun da əfsanəvi qəhrəmanlığı sayəsində Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı qəhrəmanı fəxri adı rəsmiləşdirilə bilmişdi. Musa Bağırov H.Aslanovun ikinci dəfə



Sovet İttifdaqı adına təqdim olunması ilə bağlı və eləcə də, qəhrəmanın döyüş yolunu əks etdirən məlumatları ümumiləşdirən çox dəyərli bir kitabı var. Bu kitab “Sərkərdənin taleyi” adlanır. Mən həmin kitabın naşiri olmuşam. Həmin kitabın yüksək səviyyədə, nəfis şəkildə dərc olunması üçün mətbəənin bütün imkanlarından istifadə etmişəm. Tam səmimiyyətimlə deyirəm ki, naşirlik həyatımda on minlərlə kitabın naşiri olsam da, məxsusi olaraq, “Sərkərdənin taleyi” kitabına naşirliyimlə ayrıca qürur duyuram.

Muzeyə mən tək getməmişdim. Əlbəttə, ətrafımda lənkəranlı ziyalılar da vardı. Bu da bizə imkan verdi ki, muzeydə çox maraqlı bir görüş keçirək. Burada iştirak edən hər kəs ürək sözlərini dedi. Nəhayət, mühüm bir məsələ də diqqətə çəkildi. Muzeyin direktoru Həcər xanım Nəsirova qəhrəmanın həyat yolu ilə bağlı çox canlı məlumatlar verdi. Doğrusu, indi Azərbaycan cəmiyyətində belə bir fikir dolaşır ki, Həzi Asla-



nov çox ağır döyüşlərdən birində qeyri-adi dərəcədə uğur sahibi olub. Buna görə də onu üçüncü dəfə də Sovet İttifaqı qəhrəmanı adına təqdim ediblər.

C.Şərifovanın da çıxışlarında bu məsələlərə kifayət qədər aydınlıq gətirildi. Mən öz çıxışımda xüsusilə qeyd etdim ki, arxivləri yenidən araşdırmaq lazımdır. Bunun üçün fədakar tədqiqatçılar olmalıdır. Hər halda Həzi Aslanovla bağlı aşkara çıxarılacaq hər bir fakt Azərbaycan hərb tarixinin səhifələrini işıqlandıra biləcək.

Mən muzeyə “Sərkərdənin taleyi” kitabından bir neçə nüsxə təqdim etdim. Üstəlik də, İkinci Cahan savaşında azərbaycanlıların qəhrəmanlığından bəhs edən bir neçə maraqlı kitabı da Həzi Aslanov xatirə-muzeyinə hədiyyə etdim: “Xalqlar dostluğu və qələbə”, “Qələbə və yaddaş” adlanan bu kitablar dünya tarixinin ən faciəli səhnələrini əks etdirən çox dəyərli ədəbi nümunələr kimi təqdir olunmalıdır. Onu da deyim






ki, bu kitablarda İkinci Cahan savaşının qəhrəmanlarından biri kimi mənim atam Muğdat Cəfərovun haqqında da ətraflı və əhatəli məlumat verilmişdir.

Muzeyin xatirə-kitabında şəxsi düşüncələrimi də yazdım. Xüsusilə burada H.Aslanovun həyatının bəzi məqamlarının bundan sonra da aydınlaşdırılmalı olduğunu və xüsusilə qəhrəmanın həyat yolunun haqqında tədqiqatların davam etdirilməsinin vacibliyini də qeyd etdim. Düşünürəm ki, fədakar tədqiqatçılar H.Aslanovun üçüncü dəfə Sovet İttifaqı qəhrəmanı adına təqdim olunması ilə bağlı faktları üzə çıxara biləcəklər. Onu da deyim ki, Həcər xanım Nəsirovanın direktoru olduğu xatirə muzeyinin çox diqqətli, bacarıqlı əməkdaşları var. Mən onların qəhrəmanın adına necə hörmət və ehtiramla yanaşmalarını müşahidə etdim.

Onu da deyim ki, muzeyin həyətində vaxtı ilə Həzi Aslanovun özünün əkdiyi ağac var. Bu ağacın özü də tarixi abidədir. Mənimlə birlikdə səfərdə iştirak edənlər və muzeyin əməkdaşları həmin ağacların yanında da xatirə şəkilləri çəkdirdilər. Doğrudur, qəhrəmanın adı ilə bağlı xatirə muzeyindən ayrılmağımdan hələ çox vaxt keçməyib, amma xatirə muzeyindəki isti, doğma insanların yaddaşımda əbədi qalacağına inanıram.

Biz Həcər Nəsirova ilə birlikdə qəhrəmanın həyat və döyüş yolu ilə bağlı yeni tədbirlər planımızdan da danışdıq.

Zənnimcə, əfsanəvi qəhrəmanın obrazı onun xatirə muzeyində kifayət qədər aydınlığı ilə ziyarətçilərə təqdim oluna bilir. Görüşlərimizdən maraqlı fraqmentlər də foto şəkillərə çevrildi.

Bəlkə də həyatın ən maraqlı məqamları elə unudulmaz fraqmentlərdən ibarətdir.

***Şəddat** Cəfərov*
*17.07.2023*

**REDAKSİYADAN:** *“Əfsanəvi qəhrəman obrazı” adlı yazı qəzetimizin 28(1158) 21 iyul 2023-cü il tarixli nömrəsində dərc olunmuşdu. Təəssüf ki, müəyyən səbəblərdən, ən əsası texniki diqqətsizlik ucbatından muzey direktorunun adı səhv gedib. Oxucuların xahişi ilə təhrif olunmuş faktı düzəltməklə yazını yenidən dərc etdik.*

*Müəllifdən və oxuculardan üzr istəyirik.*